# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu

https://igaz.az/

1937-ci ildə SSRİ EA Azərbaycan filialının tərkibində coğrafiya sektoru yaranır və bununla da keçmiş SSRİ və dünya elmi miqyasında özünəməxsus yeri olan Azərbaycan coğrafiya məktəbinin əsası qoyulur, coğrafiya elmi özünün təsvir funksiyasını başa vurur, Azərbaycanda coğrafiya elmi üzrə sistemli tədqiqatlar başlanır. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin "Respublikanın təbii ehtiyatlarının öyrənilməsi və rayonlaşdırması haqqında" 1925-ci il tarixdə verdiyi qərar əsasında Coğrafiya sektoru yaradılır.

1 may 1945-ci il tarixində həmin sektor əsasında Azərbaycan EA Coğrafiya İnstitutu yaradılır və H.B.Əliyev onun direktoru təyin olunur.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru Zakir Eminov, icraçı direktoru isə Zaur İmranidir.

**İnstitutun əsas elmi istiqamətləri:**

Coğrafiya İnstitutu öz elmi fəaliyyətini əsasən iki mühüm elmi problem üzərində qurmuşdur:

**1.** Azərbaycan təbiətinin inkişaf qanunauyğunluqları; təbii ehtiyatların və onların ekocoğrafi xüsusiyyətlərinin tədqiqi; istehsalın, sosial infrastrukturun və əhalinin ərazi təşkilinin iqtisadi-coğrafi problemləri; respublikanın konstruktiv və regional problemləri; səhralaşma prosesləri.

**2.** Xəzər dənizinin səviyyə dəyişkənliyini törədən amillər və ekoloji şəraitin tədqiqi.

Bu iki kompleks problemin həlli üçün institutun elmi fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır: coğrafi təbəqənin dayanıqlığı, formalaşması və dəyişkənliyi qanunauyğunluqlarının və inkişafının regional miqyasda kompleks öyrənilməsi; keçmiş geoloji dövrlərin təbii şəraitlərinin bərpa edilməsi; ərazinin geomorfoloji quruluşunun resurs əmələgətirici bir amil kimi qiymətləndirilməsi; landşaftın təkamülü; iqlimin mənşəyi və proqnozlaşdırılması; səhralaşmaya qarşı mübarizə üsulları; təbii ehtiyatlardan səmərəli istifadə olunması; qlobal və antropogen amillərin təsiri altında təbii mühitin dəyişməsinin

regional proqnozlaşdırılması; Azərbaycanda əhalinin məskunlaşması və istehsalın ərazi təşkili; Xəzər dənizinin hidrometeoroloji şəraiti, ekocoğrafi problemləri.

**Nəşr edilən elmi jurnallar:**

"Coğrafiya və təbii resurslar" jurnalı

(print ISSN 2663-2438; online ISSN 2706-8501 )

https://journal.geonatres.az/

**Şöbə və laboratoriyalar:**

1. Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsi.
2. Geomorfologiya və təbii risklər şöbəsi.
3. Qurunun hidrologiyası və su ehtiyatları şöbəsi.
4. Paleocoğrafiya şöbəsi.
5. İqlim və aqroiqlimşünaslıq şöbəsi.
6. Azərbaycanın torpaq ehtiyatları coğrafiyası şöbəsi.
7. Ekocoğrafiya şöbəsi.
8. Azərbaycanın siyasi və iqtisadi coğrafiyası şöbəsi.
9. Demoqrafiya və əhali coğrafiyası şöbəsi.
10. Turizm və rekreasiya coğrafiyası şöbəsi.
11. Tibbi coğrafiya şöbəsi.
12. Xəzər dənizinin hidrometeorologiyası şöbəsi.
13. Xəzər dənizinin səviyyə problemləri şöbəsi.
14. Xəzər dənizi sahillərinin və dibinin geomorfologiyası şöbəsi.
15. Xəzər dənizinin monitorinqi şöbəsi.
16. Geoinformatika və kartoqrafiya şöbəsi.
17. Coğrafi fikir tarixi və toponimika şöbəsi.
18. Biocoğrafi stasionar şöbəsi.

## STATİSTİK MƏLUMATLAR

## Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu

